# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Birinci xanımlar Daşkənddəki "Oxunguzar" incəsənət məkanında olublar



2


SƏS

№ 064 (7474)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

25 avqust 2026-cı il.
Qiyməti 1 manat


# Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılışı olub



2

# BMT TŞ Rusiyanın təcavüzünü müzakirə edəcək



6

## Türk dünyasının yeni strateji oxu



4

## Çinin avtomobil sənayesi qlobal nəhəngə çevrilir



7

## İdman həyat keyfiyyətinin yüksəlməsinə xidmət edir



8

## "Dondurulmuş qidalar təzə məhsullardan daha faydalı ola bilər"



8

## ZƏNGƏZUR dəhlizi: Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq



7

# Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılışı olub



***Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə ali təhsil ocağının rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev universitetin həyətində ağac əkdilər.



Azərbaycanın və Özbəkistanın dövlət başçılarına Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin tarixi və yaradılmış şərait barədə məlumat verildi.

1935-ci ildə Mərkəzi Asiya Dövlət Universitetinin Pedaqoji fakültəsinin bazasında Daşkənd Pedaqoji İnstitutu yaradılıb. 1947-ci ildə təhsil müəssisəsinin adı Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutu olaraq dəyişdirilib, 1998-ci ildən isə institut Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti kimi fəaliyyətini davam etdirib.

Universitetin məzunları arasında Özbəkistanın ədəbiyyatının, mədəniyyətinin, elminin və ictimai həyatının inkişafına mühüm töhfələr vermiş çoxsaylı görkəmli şəxsiyyətlər var.

Universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda, burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.

Universitetdə beynəlxalq təhsil proqramlarının tətbiqinə də xüsusi yer ayrılır. Təhsil ocağı dünyanın 20 ölkəsindən 15 beynəlxalq təhsil təşkilatı və 127 universitetlə, həmçinin UNESCO və UNICEF ilə sıx əməkdaşlıq qurub. Burada 12 birgə təhsil proqramı həyata keçirilir. Həmçinin 4 beynəlxalq təhsil və mədəniyyət mərkəzi - Azərbaycan, Qazaxıstan, Cənubi Koreya və Çin mərkəzləri fəaliyyət göstərir.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitet Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb. Bu əməkdaşlıq çərçivəsində birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar, təhsil və elmi təcrübə mübadiləsi, həmçinin mədəni-maarif əlaqələri inkişaf etdirilir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

"Yeni Daşkənd" ərazisində 40 hektar sahədə universitetin yeni kampusunun tikintisi həyata keçirilir. Layihə, ümumilikdə, 20 min nəfərlik tədris korpuslarının, həmçinin 5 min nəfərlik tələbə yataqxanalarının yaradılmasını nəzərdə tutur. Yeni kampusda Nizami Gəncəvi Muzeyi və universitetin tarix muzeyləri olacaq.

Dövlət başçıları burada təhsil ocağının müəllim və tələbə heyəti ilə görüşüb, onlarla söhbət etdilər.

Görüşdə Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin Azərbaycan-Özbəkistan qardaşlığının rəmzi olduğu, universitetin yeni binasının isə iki ölkəni birləşdirən qədim və müasir dəyərləri, həmçinin xalqlarımızın birliyini əks etdirdiyi vurğulanıb.

Bildirilib ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin fəaliyyətə başlamasından ötən üç il ərzində Azərbaycan və Özbəkistan şagirdləri arasında dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edib. Bu çərçivədə məktəbin müəllimləri Daşkənddə XXI əsr müəllimi üçün zəruri olan istiqamətlər üzrə təlimlərdə iştirak edirlər. Diqqətə çatdırılıb ki, məktəbin məzunlarının 20 faizi Daşkənddəki Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetə qəbul olunub.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova Azərbaycan-Özbəkistan qardaşlığının və təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə göstərdikləri dəstəyə görə prezidentlər İlham Əliyevə və Şavkat Mirziyoyevə minnətdarlığını ifadə etdi.



## İlham Əliyev Volodimir Zelenskini Ukraynanın müstəqilliyinin 35 illiyi münasibətilə təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev ukraynalı həmkarı Volodimir Zelenskiyə təbrik məktubu ünvanlayıb.

SİA-nın məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident,

Əlamətdar ildönümü - Ukraynanın müstəqilliyinin 35 illiyi münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Zəngin ənənələrə malik Azərbaycan-Ukrayna dostluq əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Siyasi dialoqumuz, yüksək səviyyəli qarşılıqlı səfərlər, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq strateji tərəfdaşlığımızın mühüm cəhətlərindəndir. Enerji sahəsində uzun illərdən bəri davam edən səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

Bu ilin aprelində Azərbaycana həyata keçirdiyiniz işgüzar səfərin nəticələrini, Sizinlə görüşümüzü yüksək qiymətləndirirəm. Şübhəsiz ki, müntəzəm görüşlər və təmaslarımız, ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində qarşılıqlı dəstəyimiz dövlətlərarası əlaqələrimizin möhkəmlənməsini şərtləndirən əsas amillərdəndir.

Ali səviyyədə fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, humanitar, kənd təsərrüfatı, investisiya və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Biz dost Ukrayna xalqına bundan sonra da humanitar dəstək göstərməyə davam edəcəyik.

İnanıram ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan-Ukrayna dostluq əlaqələrinin gücləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram".



# Birinci xanımlar Daşkənddəki "Oxunguzar" incəsənət məkanında olublar

Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida və Şaxnoza Mirziyayevalar ilə birlikdə Daşkənddə "Oxunguzar" incəsənət məkanında oldublar. SİA xəbər verir ki, bu layihə Özbəkistan Respublikasının Prezident Administrasiyası yanında Mədəniyyət və İncəsənətin İnkişafı Fondunun sifarişi ilə həyata keçirilib. İncəsənət məkanında keramika, tikiş, zərgərlik məmulatları, həmçinin ağac üzərində oyma nümunələrinin nümayiş olunduğu sərgilər təşkil edilir.

Burada, eyni zamanda, müxtəlif görüşlər, mühazirələr və maarifləndirici tədbirlər keçirilir.

***Mətləb***

# Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin təltifolunma mərasimi keçirilib

***Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin təltifolunma mərasimi keçirilib.***

Əvvəlcə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxış edərək dedi:

-Hörmətli İlham Heydər oğlu, Özbəkistana bir daha xoş gəlmisiniz. Bizim hər bir görüşümüz tarixdir. Bugünkü səfər də tarixidir. Bu gün bütün istiqamətləri, hər bir layihəni çox dəqiqliklə nəzərdən keçirdik və İlham Heydər oğlu olduqca ciddi dəstək verdi. Biz yeni Yol Xəritəsini qəbul etdik, ticarət dövriyyəsini bir milyard dollara çatdırmaq barədə razılıq əldə etdik. Əlbəttə, bu, son hədd deyil.

Əziz dostlar, Azərbaycan Prezidentinin Özbəkistana səfəri tarixi hadisədir. Biz görülən işlər və iki liderin iradəsi sayəsində nələrə nail olduğumuz barədə özümüzə daim hesabat verməliyik. Bu, qısa müddətdə əldə olunan böyük nəticədir. İlham Heydər oğluna dedim ki, 27 il aramızda heç bir nəticə olmayıb. Başa düşənlər bunu anlayır. Beləliklə, bu gün ikitərəfli münasibətlərin möhkəmləndirilməsində yeni səhifə açırıq. Qardaş Azərbaycanın nailiyyətlərinə səmimi-qəlbdən heyranıq. Hörmətli İlham Heydər oğlu, Azərbaycan Sizin rəhbərliyiniz ilə ölkənin inkişafında və beynəlxalq arenada böyük uğurlar qazanır. Yaxın dost, yaxın qonşu və müttəfiq olaraq, biz həmişə bu nəticələrə sevinirik. Siz ölkənin ərazi bütövlüyünü bərpa etməklə bir daha xalqınızı birləşdirdiniz. Siz dahi atanız, hörmətli Heydər Əliyevin işini layiqincə davam etdirirsiniz, onun müdrik vəsiyyətlərini, arzularını və istəklərini ardıcıl olaraq həyata keçirirsiniz. Azərbaycana səfərlərim zamanı şəxsən Qarabağda baş verən böyük dəyişikliklərin və bölgənin dinamik inkişafının şahidi oldum. Həmişə deyirəm ki, Azərbaycan bizim yaxın, etibarlı, zamanın sınağından çıxmış dostumuz və tərəfdaşımızdır.



Əsrlərdən bəri iki ölkənin xalqlarını qardaşlıq münasibətləri, ortaq tarix və din, oxşar mədəniyyət, dil və adət-ənənələr birləşdirir. İlham Heydər oğlu, Siz Özbəkistanla çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə vermisiniz. Siz ölkələrimiz arasında müttəfiqliyin ön sıralarında olmusunuz.

Əminəm ki, Əbədi dostluq haqqında Müqavilə münasibətlərimizi yeni məzmunla zənginləşdirəcək. Bu gün ölkəmizin əsl dostu olan Sizə bu nüfuzlu mükafatı - ən yüksək dərəcəli "Dostluq" ordenini təqdim etməkdən xüsusilə məmnunam. Bu, Özbəkistanla Azərbaycan arasında əbədi dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin verdiyiniz böyük töhfəyə hörmətin və minnətdarlığın rəmzidir. Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram. Bilirsiniz, bunun baş verməsi məni çox sevindirir. Fərmanı məmnunluqla imzaladım, bu günün gəlib çatması ilə fəxr edirdim. İlham Heydər oğlu, Sizi bu münasibətlə təbrik edirəm. Bu, Özbəkistan dövlətinin ən yüksək ordenidir və Siz əmin ola bilərsiniz ki, buna layiqsiniz. Təbrik edirəm.

***

Prezident Şavkat Mirziyoyev ali dərəcəli "Dostluq" ordenini dövlətimizin başçısına təqdim etdi.

***

Sonra çıxış edən Prezident İlham Əliyev dedi:

-Hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

Əvvəlcə, fəaliyyətimə verilən belə yüksək qiymətə görə Sizə səmimi-qəlbdən minnətdaram. Siz dediyiniz kimi, ali dərəcəli, - Azərbaycan dilində də bu, belə səslənir - "Ali dərəcəli", - "Dostluq" ordeni ilə təltif olunmağım mənim üçün böyük şərəfdir. Belə qardaş münasibətinə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Artıq dediyim kimi, bu, mənim üçün böyük şərəfdir və bu yüksək mükafata layiq olmaq, xalqlarımız, dövlətlərimiz arasında dostluğu və qardaşlığı möhkəmləndirmək naminə fəaliyyətimə davam etmək üçün bundan sonra da bütün səylərimi əsirgəməyəcəyəm.

Şavkat Miromonoviç çıxışında münasibətlərimizin strateji müttəfiqlik xarakterini qeyd etdi. Biz buna nisbətən qısa müddət ərzində nail olmuşuq. Özbəkistana səfərlərimin xronologiyasına baxanda ən intensiv dövr son dörd-beş ilə təsadüf edir. Bu müddət ərzində mən Özbəkistana artıq yeddinci dəfədir səfər edirəm, Şavkat Miromonoviçin Azərbaycana səfərlərinin sayı isə həmin dövrdə daha çox olub.

Bu, sadəcə statistikadır. Amma bu statistikanın arxasında, ilk növbədə, ortaq köklərimiz, xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin, dillərimizin və adət-ənənələrimizin yaxınlığı, bir-birimizə qarşı səmimi münasibət, özbək və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq dayanır. Bu, həmin təməldir - əlbəttə, qardaşlığımızın bu binasını necə möhkəmləndirdiyimiz, hansı layihələri həyata keçirdiyimiz, qarşılıqlı fəaliyyətimizə və ölkələrimizin inkişafına yönəlmiş müxtəlif təşəbbüslərdə necə birgə iştirak etdiyimiz.

Əlbəttə, bu yüksək mükafatı alarkən Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin ikitərəfli münasibətlərimizin möhkəmlənməsindəki xüsusi rolunu, xalqımıza qarşı səmimi münasibətini və Qarabağın bərpasında göstərdiyi köməyi qeyd etmək istərdim. Mən bu gün artıq bu barədə danışdım və Azərbaycanda hamı bilir ki, dünyada Qarabağın bərpasında bizə ilk kömək edən Prezident, ilk ölkə Prezident Mirziyoyev və Özbəkistandır.

Təbii ki, Özbəkistana hər dəfə səfər edəndə artıq bir çox yerləri gəzmişəm, Daşkəndin necə gözəlləşdiyini, binaların, küçələrin və infrastrukturun necə yeni görkəm aldığını, bütün bu işlərin necə böyük zövqlə, böyük sevgi ilə və yüksək keyfiyyətlə görüldüyünün şahidi olmuşam. Əziz qardaşımın "Yeni Daşkənd" layihəsi müasir şəhərsalmanın nadir əsəridir, Özbəkistan paytaxtının gələcək inkişafı ilə bağlı onun vizyonunun nəticəsidir.

Əlbəttə ki, bu, həm də Özbəkistanın inkişafının və qüdrətinin rəmzidir. Heç də hər ölkə sıfırdan şəhərlər tikmək imkanına malik deyil. Buraya Səmərqəndin necə dəyişdiyini də əlavə etməliyəm. Bunu ilk səfərimdən və nisbətən bu yaxınlarda orada olduğumuz vaxtdan yaxşı xatırlayıram. Keçən səfərimdə olduğum Xivə də çox gözəl təəssürat yaratdı. Tarixi abidələrin qorunması, tarixi memarlığa diqqət yetirilməsi, həmçinin şəhərsalmada müasir inkişaf tam və müvafiq şəkildə vəhdət təşkil edir. Bütün bunlar Şavkat Miromonoviçin Özbəkistanı gücləndirmək, ölkənin potensialını artırmaq, onun iqtisadiyyatını və sənayesini inkişaf etdirmək üzrə məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Bu gün kənd təsərrüfatı, sənaye, dağmədən və energetika sahələrində birgə layihələrdən xeyli danışdıq. Lakin ölkələrimizin bu potensialı olmasaydı, bunlar mümkün olmazdı. Bu zəmin olmasaydı, birgə layihələr haqqında düşünə bilməzdik, yalnız ölkə daxilində işləri necə yaxşılaşdırmaq barədə düşünərdik. Bu gün isə biz qarşılıqlı fəaliyyətə, birgə investisiyalara diqqət yetiririk. Birgə investisiyalar milyardlarla dollar təşkil edəcək. Bunlar artıq planlar deyil, konkret layihələr, konkret müqavilələr və bizim konkret investisiya təşəbbüslərimizdir. Əlbəttə ki, dost və qardaş olaraq hörmətli Şavkat Miromonoviçi bütün nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Biz buna ürəkdən sevinirik. Qardaşlığa və müttəfiqliyə əsaslanan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsinə verdiyi böyük töhfəyə görə Şavkat Miromonoviç Mirziyoyevi Azərbaycanın ən ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif etmək haqqında Sərəncam imzaladım.

***

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Özbəkistanın dövlət başçısına təqdim etdi.

***Azərbaycan-Özbəkistan əlaqələrin təməlində siyasi konjonktura deyil, əsrlərin sınağından çıxmış tarixi, milli və mənəvi bağlılıq dayanır. Azərbaycan və Özbəkistan xalqlarını ortaq türk kökləri, dil və mədəniyyət yaxınlığı, eyni mənəvi dəyərlər və tarix boyu formalaşmış qarşılıqlı rəğbət birləşdirir. Məhz bu möhkəm təməl üzərində qurulan dövlətlərarası münasibətlər son illərdə sürətlə inkişaf edərək ən yüksək səviyyəyə - müttəfiqlik mərhələsinə yüksəlib. Prezident İlham Əliyev də Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində bu münasibətlərin məhz ortaq tarix, mədəniyyət, dil və mənəvi dəyərlərə söykəndiyini xüsusi vurğulayıb.***

# Türk dünyasının yeni strateji oxu

## *Bakı və Daşkənd arasında müttəfiqlik zirvəsi*



### 23 avqust səfəri - münasibətlərin yeni siyasi mərhələsinin nümayişi

Avqustun 23-də Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinə başlaması bu münasibətlərin artıq hansı səviyyəyə çatdığını bir daha nümayiş etdirdi. "Daşkənd-Xumo" Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsinin düzülməsi, dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Prezident Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyevanın şəxsən qarşılaması sadəcə diplomatik protokol hadisəsi kimi qiymətləndirilməməlidir.





Burada xüsusi diqqət çəkən məqam qarşılanmanın səmimiyyətidir. Dövlətlərarası münasibətlərdə protokol vacibdir, amma münasibətlərin əsl mahiyyətini protokoldan kənarda müşahidə etmək mümkündür. Liderlərin bir-birinə münasibəti, qarşılıqlı hörmət və şəxsi dostluq, xalqların bir-birinə olan rəğbəti həmin münasibətlərin nə qədər dərin olduğunu göstərir.

Daşkənddə Azərbaycan Prezidentinin qarşılanması da məhz belə bir mənzərə yaratdı. Şəhərin Azərbaycan və Özbəkistan bayraqları ilə bəzədilməsi və səfərə göstərilən yüksək ictimai diqqət iki xalq arasındakı münasibətlərin dövlət səviyyəsini aşaraq xalq diplomatiyasına çevrildiyini göstərən mühüm mesajlardır.

Bu münasibətləri yalnız bugünkü siyasi proseslərlə izah etmək olmaz. Azərbaycanla Özbəkistanın dostluğu yeni yaranmayıb. Bu gün dövlət başçıları səviyyəsində nümayiş etdirilən səmimiyyətin arxasında çox böyük tarixi-mədəni yaddaş dayanır.

Azərbaycan və Özbəkistan türk dünyasının iki böyük mədəniyyət mərkəzidir. Bir tərəfdə Nizami, Füzuli, Nəsimi kimi böyük Azərbaycan mütəfəkkirlərinin irsi, digər tərəfdə Əlişir Nəvai, Mirzə Uluqbəy və Əmir Teymur kimi tarixi şəxsiyyətlərin qoyduğu zəngin irs var. Bu mədəniyyətlər əsrlər boyu bir-birindən bəhrələnib, bir-birini tamamlayıb. Bu baxımdan Azərbaycan-Özbəkistan münasibətlərinin bugünkü yüksəlişi əslində tarixi bağlılığın müasir dövlətçilik siyasəti ilə yenidən ifadəsidir.

### Liderlər arasında şəxsi etimad xüsusi amildir

Azərbaycan-Özbəkistan münasibətlərinin bugünkü səviyyəyə yüksəlməsində Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında formalaşmış qarşılıqlı hörmət və etimadın xüsusi rolu var. Bu, çox mühüm amildir. Çünki dövlətlər arasında müqavilələr və sənədlər münasibətlərin hüquqi bazasını yaradır, lakin onların davamlı və effektiv həyata keçirilməsi siyasi iradə tələb edir.

Son illərdə Azərbaycan və Özbəkistan liderlərinin qarşılıqlı səfərlərinin intensivliyi də bu siyasi iradənin göstəricisidir. 2024-cü ilin avqustunda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri, 2025-ci ilin iyulunda Prezident Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri zamanı imzalanmış "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" və "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" münasibətlərin hüquqi-siyasi əsaslarını daha da möhkəmləndirib. Deməli, bugünkü səmimiyyətin arxasında konkret siyasi sənədlər, konkret razılaşmalar və ardıcıl dövlət siyasəti dayanır.

### Beynəlxalq platformalarda həmrəylik

Azərbaycan-Özbəkistan münasibətlərini fərqləndirən əsas xüsusiyyətlərdən biri də iki ölkənin yalnız ikitərəfli formatda deyil, beynəlxalq platformalarda da bir-birinə yaxın mövqedən çıxış etməsidir. BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər platformalarda əməkdaşlıq iki ölkənin siyasi dialoqunu daha geniş müstəviyə çıxarır.

Bu əməkdaşlıq Türk dünyasının beynəlxalq təşkilatlarda daha fəal və koordinasiyalı mövqe nümayiş etdirməsi baxımından da əhəmiyyətlidir.

### TDT - iki ölkənin ortaq strateji baxışının əsas platforması

Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatına yalnız tarixi-mədəni birlik kimi baxmırlar. TDT onlar üçün siyasi, iqtisadi, nəqliyyat, humanitar və təhlükəsizlik əməkdaşlığının genişləndiyi strateji platformadır. Azərbaycanın TDT-nin inkişafındakı rolu, Özbəkistanın təşkilat daxilində fəallığı və iki ölkənin türk dövlətlərinin daha sıx inteqrasiyasını dəstəkləməsi bu platformanın gələcək potensialını artırır.

Burada artıq söhbət yalnız "biz eyni kökdən gəlirik" deməkdən getmir. Söhbət həmin ortaq kökü müasir iqtisadi, siyasi və geosiyasi gücə çevirməkdən gedir.

### Cənubi Qafqaz və Mərkəzi Asiya bir-birinə yaxınlaşır

Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı da məhz bu yeni geosiyasi reallığın mühüm göstəricisidir.

*Ardı Səh. 5*




# Türk dünyasının yeni strateji oxu

## *Bakı və Daşkənd arasında müttəfiqlik zirvəsi*

Əvvəli Səh. 4

Azərbaycan Cənubi Qafqazı Mərkəzi Asiya ilə birləşdirən əsas nəqliyyat və logistika məkanlarından birinə çevrilir. Özbəkistan isə Mərkəzi Asiyanın mühüm iqtisadi və siyasi mərkəzlərindən biridir.

Bu iki ölkənin əməkdaşlığı nəticəsində Cənubi Qafqazla Mərkəzi Asiya arasında əlaqələr daha institusional xarakter alır.

### Orta Dəhliz və yeni Avrasiya xəritəsi

Azərbaycan-Özbəkistan əməkdaşlığının gələcəyini müəyyənləşdirəcək əsas istiqamətlərdən biri də nəqliyyatdır. Özbəkistanın Çinlə, Qırğızıstanla və Mərkəzi Asiyanın digər dövlətləri ilə nəqliyyat bağlantılarının inkişafı, Azərbaycanın Xəzər üzərindən Avropaya çıxışı və Orta Dəhlizin imkanları iki ölkənin maraqlarını birləşdirir.

Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun Orta Dəhlizlə əlaqələndirilməsi və TRIPP kimi yeni bağlantıların meydana çıxması Avrasiyanın nəqliyyat xəritəsində mühüm dəyişikliklər yarada bilər. Bu baxımdan Bakı ilə Daşkənd arasındakı əməkdaşlıq yalnız iki ölkənin iqtisadi maraqları deyil, Şərqlə Qərb arasındakı yeni tranzit sisteminin formalaşması baxımından da əhəmiyyətlidir.




### Səmimi qarşılanmanın arxasında böyük siyasi mesaj var

Mən hesab edirəm ki, Prezident İlham Əliyevin avqustun 23-də Daşkənddə qarşılanmasına məhz bu geniş kontekstdən yanaşmaq lazımdır. Fəxri qarovul, dövlət başçılarının hava limanında görüşməsi, Azərbaycan və Özbəkistan bayraqlarının Daşkənd küçələrində yanaşı dalğalanması - bunların hər biri protokol elementidir. Lakin bu protokolun arxasında daha böyük siyasi məna dayanır. Bu, iki dövlətin bir-birinə olan münasibətinin nümayişidir. Bu, həm də Özbəkistanın Azərbaycana verdiyi siyasi dəyərin göstəricisidir.

Ən əsası isə bu, iki xalqın bir-birinə münasibətinin dövlətlərarası əlaqələrə çevrilməsinin nümunəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana budəfəki dövlət səfəri ona görə mühümdür ki, bu səfər artıq münasibətlərin formalaşdırılması mərhələsinə deyil, əldə edilmiş müttəfiqliyin daha da dərinləşdirilməsi mərhələsinə təsadüf edir.

Bu gün Azərbaycanla Özbəkistan arasında münasibətlərin hüquqi bazası var, siyasi etimad var, iqtisadi layihələr var, beynəlxalq platformalarda qarşılıqlı dəstək var, liderlər arasında səmimi münasibət var və ən əsası - xalqlar arasında tarixi bağlılıq var.

Bütün bunlar bir yerdə Azərbaycan-Özbəkistan münasibətlərini adi diplomatik tərəfdaşlıqdan fərqləndirir.

Hesab edirəm ki, bu münasibətləri artıq tarixi qardaşlığın strateji müttəfiqliyə, strateji müttəfiqliyin isə əbədi dostluğa çevrilməsi kimi qiymətləndirmək olar.

Azərbaycan və Özbəkistanın bugünkü münasibətləri həm də Türk dünyasına verilən mühüm mesajdır: ortaq tarix və mədəniyyət yalnız keçmişin xatirəsi deyil, gələcəyin siyasi, iqtisadi və geosiyasi gücünə çevrilə bilər.

23 avqust səfərinin əsas əhəmiyyəti də məhz bundadır - Bakı ilə Daşkənd arasında mövcud olan qardaşlıq münasibətləri yeni mərhələyə qədəm qoyur və bu mərhələ artıq yalnız iki ölkənin deyil, bütövlükdə Türk dünyasının gələcəyi baxımından strateji əhəmiyyət daşıyır.

***Bəhruz Quliyev,***
***"SƏS" Media Qrupun rəhbəri***

# Zəfər salnaməmizdən - Laçın Şəhəri Günu

2022-ci il avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün Azərbaycan xalqını sevindirdi: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində işğal altında olan torpaqlarımız azad olundu, Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələri darmadağın edilərək, işğala son qoyuldu. Ərazi bütövlüyümüzün bərpa edilməsi, münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində sözünü demiş oldu. 10 noyabr 2020-ci il tarixdə 44 gün davam edən hərbi əməliyyatların yekunu və Ermənistanın məğlubiyyətinin açıq etirafının təsdiqi olaraq Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən üçtərəfli Bəyanat imzalandı. Bu Bəyanat Ermənistanın kapitulyasiya aktı idi və ölkəmizin maraqlarını ifadə edirdi. Həmin sənəddə bir sıra müddəalarla yanaşı, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilmə tarixləri yer almışdır. Dekabrın 1-i 2020-ci il tarixində strateji əhəmiyyətə malik Laçın rayonu Azərbaycana qaytarıldı. "Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq", - deyə Prezident çıxışlarının birində bildirmişdir. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçdi. Tarixdən bəllidir ki, ötən əsrin 20-ci illərində indiki Laçın, Qubadlı və Kəlbəcər rayonlarının ərazisini əhatə edən ərazidə Kürdüstan qəzası yaradıldı. İnzibati mərkəz müvəqqəti olaraq Şuşa şəhərində yerləşsə də, elə həmin il - 1923-cü ildə Laçın və Abdallar kəndləri arasında kiçik bir şəhər salındı və qəza mərkəzi ora köçürüldü. Relyef və ora yaxın kəndin adı nəzərə alınmaqla şəhərə Laçın adı verildi. 1930-cu ildə Azərbaycan SSR-də qəza inzibati ərazi vahidləri ləğv edilərək onların ərazisində rayonlar yaradıldı. Kürdüstan qəzası ərazisində 3 rayon - Laçın, Qubadlı və Kəlbəcər rayonları yaradıldı. Azərbaycanın qərb torpaqlarına sahib çıxaraq bu torpaqlar üzərində özlərinə dövlət quran ermənilər artıq Azərbaycana qarşı yeni, daha böyük ərazi iddiaları ilə çıxış etməyə başladılar. Onlar Qarabağı Ermənistana birləşdirilməsi məsələsini ortaya ataraq




bir maneə kimi Laçın rayonunu aradan götürməyin yollarını düşündülər. Sovetlər dönəmində ermənilər dəfələrlə Laçın rayonunun bir inzibati mərkəz kimi ləğvinə çalışsalar da, təşəbbüsləri baş tutmamışdı.

## "HESAB EDİRDİLƏR Kİ, ƏGƏR AZƏRBAYCAN XALQI BÖYÜK BİR SARSINTI KEÇİRƏRSƏ, ONLAR ÜÇÜN ƏLAVƏ ŞANSLAR YARANACAQ"

18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçını işğal etdi və işğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətlərilə zəngin guşələrindəndir. Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır. Laçın rayonunun 22 min hektarı meşə sahəsidir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. Dövlət başçımız Laçının işğalı ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi, - deyərək, bunun AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti olduğunu qeyd etmişdi: "AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur".

## AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİ ÜZRƏ ŞƏHƏR GÜNLƏRİ TƏSİS EDİLDİ

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edildi. Sözügedən Sərəncama əsasən 26 avqust Laçın Şəhəri Günüdür. Bu gün işğaldan azad olunan ərazilərimizə, eləcə də Laçına Böyük Qayıdış başlayıb. Laçın yeni qaynar, dövrünü yaşayır. Azad Laçında abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. Laçının Baş Planına əsasən, 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş Plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb. Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı Prezident İlham Əliyevin nəzarəti altındadır. İşğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev Laçın rayonuna səfərləri zamanı dövlətimizin başçısı "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının, Laçın şəhərində 1 Dekabr, Heydər Əliyev, Zəfər və 28 May, Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişmələrindəki lövhələrin açılışını edib. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarından olacaq. Artıq Həkəri çayında astana və göl yaradılıb. Gölün üzərində asma körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb, kotteclər tikilib. Laçında Kiçik Su Elektrik stansiyalarının açılışı, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışı, "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışı, "Həkəri Balıq Təsərrüfatı"nın açılışı, "AzərEnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının (KSES) açılışları Laçında aparılan abadlıq-quruculuq işlərinin təzahürüdür. Bütün bunlarla yanaşı, dövlət başçısı tərəfindən Güləbird və Qorçu kəndlərinin Baş planı təsdiqlənib. Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Dövlət başçısının bildirdiyi kimi, Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdiriləcəkdir.

Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız". Bütün azad edilmiş ərazilərimiz kimi, ölkəmizin dilbər bölgələrindən biri olan, əsrarəngiz təbiət mənzərələri, gözəlliyi ilə seçilən, doğma sakinlərinə qovuşaraq azad günləri yaşayan Laçın da genişmiqyaslı bərpa-quruculuq işlərinin məkanına çevrilib. Ardıcıl şəkildə aparılan bu işlər nəticəsində Laçın yeni inkişaf dövrünü yaşayır və gündəngünə daha da gözəlləşir.

*Laçın, Şəhər Günün MÜBARƏK!*

***Zümrüd BAYRAMOVA***

# BMT TŞ Rusiyanın təcavüzünü müzakirə edəcək



***BMT Təhlükəsizlik Şurası tammiqyaslı müharibənin davam etməsini müzakirə etmək üçün 24 avqustda, Ukraynanın Müstəqillik Günündə toplanacaq. Bu barədə Ukrinformun məlumatına görə, Təhlükəsizlik Şurasının Katibliyi məlumat verib.***

İclas Təhlükəsizlik Şurasının beş Avropa üzvü - Danimarka, Fransa, Yunanıstan, Latviya və Birləşmiş Krallıq tərəfindən təşəbbüs göstərilib. Danimarka xarici işlər naziri Lars Lökke Rasmussenin avqust ayı üçün Təhlükəsizlik Şurasına sədrlik etdiyi üçün iclasa sədrlik edəcəyi gözlənilir.

BMT məruzəçiləri Baş katibin siyasi və humanitar məsələlər üzrə müavini Rozmari DiKarlo və Tom Fletçer olacaq.

İclasın Kiyev vaxtı ilə saat 22:00-da başlaması planlaşdırılır.

Xarici İşlər Naziri Andriy Sybiha 20 avqustda Kiyevə edilən kütləvi hücumdan sonra Avropa Birliyinə Rusiyaya qarşı xüsusi antiballistik sanksiyalar paketi təklif etdi.

Qeyd etmək lazımdır ki, 10 avqustda BMT Təhlükəsizlik Şurası Rusiya tərəfindən işğal olunmuş ərazilərdə və onun saxlanma mərkəzlərində qanunsuz saxlanılan ukraynalı hərbi əsirlərə və mülki şəxslərə həsr olunmuş Arria Formula iclası keçirib.

***VƏLİ***

# Çinin avtomobil sənayesi qlobal nəhəngə çevrilir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*

***Çinin avtomobil sənayesi xarici bazarlarda sürətlə irəliləyir. Çin şirkətləri Avropadan Cənub-Şərqi Asiyaya qədər müxtəlif bazarlara daxil olaraq Toyota Motor və Volkswagen kimi uzun illərdir bazarda mövqeyini qoruyan avtomobil istehsalçılarına təzyiqi artırır.***

Lakin Çinin daxilində vəziyyət fərqlidir. Dünyanın ən böyük avtomobil bazarında satışlar ötən ilin sonlarından etibarən davamlı şəkildə azalır. İstehlakçı tələbinin zəifləməsi və illərdir davam edən kəskin qiymət rəqabəti ölkənin avtomobil bazarında artıq istehsal gücünün yaranmasına səbəb olub.

Analitiklər və sənaye nümayəndələri bildirirlər ki, BYD, Geely və Chery kimi böyük Çin avtomobil şirkətləri uzun müddətdir qlobal miqyasda aparıcı istehsalçılara çevrilməyə çalışırlar. Lakin hazırda sənayenin sürətli xaricə genişlənməsini təkcə bu ambisiya deyil, həm də iqtisadi zərurət şərtləndirir.

Reuters Agentliyi yazır ki, Çində daxili tələbin zəifləməsi avtomobil istehsalçılarını artıq başlanmış xarici bazarlara çıxış strategiyasını daha da sürətləndirməyə vadar edir. Bu isə Çin şirkətlərinin texnoloji baxımdan inkişaf etmiş və daha aşağı qiymətli elektrik avtomobilləri ilə rəqabət aparmaqda çətinlik çəkən Avropa və Yaponiya istehsalçılarına əlavə təzyiq yaradır.

Şanxayda yerləşən Automobility məsləhət şirkətinin baş direktoru Bill Russo bildirib ki, Çin avtomobil istehsalçılarının artıq istehsal gücü, yüksək rəqabət qabiliyyətli təchizat zəncirləri, getdikcə təkmilləşən məhsulları və Çindən kənarda böyümək üçün güclü iqtisadi motivasiyası var.Onun sözlərinə görə, qlobal bazara çıxmaq Çinin aparıcı avtomobil istehsalçıları üçün strateji zərurətə çevrilir.

Çin Minik Avtomobilləri Assosiasiyasının açıqladığı məlumatlara görə, ölkədə avtomobil satışları iyul ayında əvvəlki ilin eyni ayı ilə müqayisədə 20% azalaraq 1,47 milyon avtomobilə düşüb. Bu, satışların ardıcıl 10-cu aydır ki azalması deməkdir. Eyni zamanda avtomobil ixracı 88% artaraq 923 min avtomobilə çatıb.

Bu göstəricilərə Çində istehsal olunan xarici markalar da daxil olsa da, ümumi tendensiya yerli avtomobil istehsalçıları arasında da müşahidə olunur: daxili satışlarda ikirəqəmli azalma, ixracda isə ikirəqəmli artım qeydə alınır. Assosiasiyanın rəhbəri Cui Dongshu son zəifləməni yüksək yanacaq qiymətlərinin benzinlə işləyən avtomobillərə tələbi azaltması və daha aşağı qiymət seqmentində sedanlara tələbin davamlı zəifliyi ilə əlaqələndirib.

Daha geniş mənzərədə isə avtomobil sənayesində baş verənlər dünyanın ikinci ən böyük iqtisadiyyatında müşahidə olunan ümumi prosesləri əks etdirir. Artan istehsal və ixrac iqtisadi artımı dəstəkləyir, lakin zəif daşınmaz əmlak bazarı və istehlak xərclərinin azalması daxili tələbi məhdudlaşdırır. Çin hökuməti ölkədə istehsal olunan məhsulların daxili bazarda satıla biləcəyindən daha çox olduğu bir iqtisadiyyatla mübarizə aparır. Avtomobil istehsalçıları üçün isə xarici bazarlar getdikcə daha mühüm satış istiqamətinə çevrilir.

Bu ilin ilk yarısında Çində daxili avtomobil satışları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,3 milyon avtomobil, yəni 20% azalıb.

Bu, dünyanın dördüncü ən böyük avtomobil bazarı olan Yaponiyada həmin dövrdə qeydə alınan bütün yeni avtomobil qeydiyyatlarının ümumi sayına bərabərdir. Eyni zamanda Çinin avtomobil ixracı ilin ilk yarısında 71% artıb.

Böyük Britaniyanın beynəlxalq bank və maliyyə şirkəti HSBC analitiki Yuqian Ding hesab edir ki, daxili avtomobil tələbi sabitləşə və avqustun sonundan sentyabr ayına qədər yeni modellərin bazara çıxmasının sürətlənməsi fonunda bərpa olunmağa başlaya bilər. Bununla belə, onun fikrincə, kəskin və sürətli bərpa ehtimalı azdır.

Məsələn, BYD ilin ilk yeddi ayında Çində satışlarının 35% azalmasını xaricdə satışların 79% artması hesabına kompensasiya edib. 2026-cı ildə Braziliya və Böyük Britaniya Çindən kənarda BYD-nin ən böyük ayrı-ayrı bazarlarına çevrilib. Çinin xarici bazarlardakı artan mövcudluğu xüsusilə Yaponiya üçün ciddi çağırış yaradır. 2023-cü ildən etibarən Çin dünyanın ən böyük avtomobil ixracatçısıdır. Bu titul uzun müddət onun Asiyadakı rəqibi Yaponiyaya məxsus olub.

Russonun sözlərinə görə, Yaponiyanın avtomobil ixracatçısı kimi yüksəlişi istehsal səmərəliliyi, keyfiyyət və yanacaq qənaəti üzərində qurulmuşdu. Bu gün isə Çinin üstünlüyü daha genişdir. Buraya elektrikləşdirmə, batareyalar, proqram təminatı, ağıllı funksiyalar, geniş təchizat zənciri və məhsulların çox sürətlə hazırlanması daxildir. Onun fikrincə, bütün bu amillərin birləşməsi Çinin qlobal avtomobil bazarına çıxışını daha böyük təsirə malik edə bilər.

Çin və Yaponiya bazar payı uğrunda mübarizə aparır. Çin şirkətlərinin təzyiqi artıq əsas xarici bazarlarda da görünür. Qlobal texnologiya və bazar araşdırmaları şirkəti Counterpoint Research-in məlumatına görə, 2026-cı ilin ilk rübündə Yaponiya avtomobil istehsalçılarının Avropanın minik avtomobilləri bazarındakı payı təxminən 12% olub. Bu göstərici dörd il əvvəlki səviyyə ilə müqayisədə ciddi dəyişməyib.

Eyni dövrdə Çin avtomobil istehsalçılarının Avropa bazarındakı payı isə 3%-dən 16%-ə yüksəlib. Avtomobil qeydiyyatı məlumatları bu artımın bəzi Avropa, Cənubi Koreya və ABŞ istehsalçılarının bazar payı hesabına baş verdiyini göstərir. Fərq elektrik avtomobilləri bazarında daha aydın görünür. Çin markaları Avropadakı elektrik avtomobillərinin tədarükünün təxminən dörddə birini təşkil edir. Yaponiya avtomobil istehsalçılarının payı isə 5%-dən bir qədər aşağıdır.

Counterpoint Research-in analitiki Abhilash Gupta bildirib:"Əsas fərq elektrik avtomobillərindədir. Bu, sadəcə qiymət məsələsi deyil, elektrikləşdirmə sahəsindəki fərqdir. Getdikcə daha çox Çin avtomobil istehsalçısı yalnız avtomobil ixracı ilə kifayətlənmir, Avropada zavodlar tikərək yerli istehsala da başlayır. 2030-cu ilə qədər Çin avtomobil markaları Avropanın ümumi minik avtomobilləri bazarının 20%-dən çoxuna, elektrik avtomobilləri bazarının isə 29%-nə sahib ola bilər. Gömrük tarifləri bu artım tempini yavaşlada bilər, lakin onu geri çəkilməyə məcbur edə bilməyəcək."

***Lalə Mehralı***

## ZƏNGƏZUR dəhlizi: Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq



***Avqustun 23-də Özbəkistana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Daşkənddə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib. İclasda çıxış edən dövlətimizin başçısı Zəngəzur dəhlizi barədə də fikirlərini bildirib, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində işlərin fəal şəkildə davam etdirildiyini vurğulayıb.***

Azərbaycanın əsas hissəsində bu layihənin gələn il başa çatacağını vurğulayan Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında da müvafiq işlərə başlanıldığını diqqətə çatdırıb. Konseptual yanaşmanın Naxçıvan dəmir yolunu Azərbaycan dəmir yollarının tərkib hissəsi kimi görməkdən ibarət olduğunu qeyd edən dövlət başçısı bu marşrut üzrə investisiya yatırmaq, mənfəət əldə etmək və daşıma həcmlərini təmin etmək istəyən maraqlı şirkətlər və ölkələrin iştirakı ilə beynəlxalq konsorsiumun yaradılmasının planlaşdırıldığını vurğulayıb.

Dövlətimizin başçısı deyib: Məlumat üçün bildirmək istəyirəm ki, Ermənistanda da işlər gedir, amerikalı tərəfdaşlarımız bizi bu barədə müntəzəm məlumatlandırırlar. Bizə deyilənlərə görə, Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq. Lakin oradakı məsafə cəmi 42 kilometrdir, Naxçıvan Muxtar Respublikasının ərazisində isə 194 kilometrdir. Bəli, buna görə də işə başladıq, bütün hallarda onu tamamlayacağıq. Amma müxtəlif şirkətlərdən maraq olduğunu bildiyimiz üçün sadəcə məlumat vermək istərdim ki, əgər maraq varsa, təklif olunan konsorsiumda iştirak etmək imkanı mövcuddur.

Azərbaycan Bakıdan Ermənistan sərhədinə qədər təxminən 400 kilometr məsafədə olan mövcud dəmir yolu xəttinin bir hissəsini sıfırdan yenidən qurur və modernləşdirir,- deyə bildirən dövlətimizin başçısı xəttin Naxçıvan hissəsi isə təxminən 200 kilometr olduğunu, bunun isə Orta Dəhlizin əhəmiyyətli bir qolu olacağını qeyd edib.

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
25 avqust
2026-cı il

# “Dondurulmuş qidalar təzə məhsullardan daha faydalı ola bilər”





**“Dondurulmuş qidalar əksər hallarda təzə məhsullar qədər, bəzən isə mağaza rəflərindəki təzə məhsullardan daha çox qida dəyərinə malik ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında ”Refresh Group” MMC adlı Qida təhlükəsizliyi üzrə konsaltinq xidmətləri göstərən şirkətin Baş İcraçı Direktoru Seymur Qafarov deyib.**

Onun sözlərinə görə, məhsulun nə vaxt dondurulması və istifadə olunan dondurma texnologiyası qida dəyərinin qorunmasında əsas rol oynayır: ”Dondurma prosesində vitamin və mineralların vəziyyəti nisbətən sabit qalır. Kalsium, kalium, dəmir, maqnezium və sink kimi minerallar dondurma və sonrakı saxlanma zamanı ciddi dəyişikliklərə məruz qalmır. Yağda həll olan A, D, E və K vitaminləri də struktur baxımından kifayət qədər davamlıdır və dondurma zamanı, demək olar ki, itkiyə uğramır.

Suda həll olan C və B qrupu vitaminlərində isə müəyyən itkilər baş verə bilər. Tərəvəzlər dondurulmazdan əvvəl bakteriyaların və fermentlərin fəaliyyətini dayandırmaq üçün qısa müddət qaynar sudan keçirilir. Bu proses blanşinq adlanır. Blanşinq zamanı C və B qrupu vitaminlərinin təxminən 10-20 faizi itə bilər, lakin vitaminlərin böyük hissəsi məhsulda qalır.

Dondurulmuş meyvə və tərəvəzlərin qida dəyərinin yüksək olmasının əsas səbəblərindən biri onların adətən tam yetişdiyi və qida dəyəri ilə vitamin zənginliyinin pik həddə çatdığı vaxt yığılmasıdır. Məhsullar yığıldıqdan bir neçə saat sonra sürətli dondurma, yəni ”flaş-dondurma” üsulu ilə dondurulur. Bu proses qida maddələrinin məhsulun daxilində qorunmasına və vitamin itkisini minimuma endirməyə kömək edir.

Bunun əksinə olaraq, mağazalarda ”təzə” adı ilə satılan bəzi meyvə və tərəvəzlər xarab olmaması üçün tam yetişmədən yığıla, günlərlə daşına və daha sonra rəflərdə saxlanıla bilər. Bu müddət ərzində işıq, hava və temperaturun təsiri ilə xüsusilə C vitamini və fol turşusunda itkilər baş verə bilər. Nəticədə 5-6 gün rəfdə qalan bəzi tərəvəzlər dondurulmuş məhsullardan daha az vitamin ehtiva edə bilər. Daşınma və saxlanma şəraiti düzgün olmadıqda isə vitamin itkisi daha da sürətlənir.

Bununla yanaşı, dondurulmuş qidalardan istifadə edərkən qida təhlükəsizliyi ilə bağlı bir sıra vacib məqamlara diqqət yetirmək lazımdır. İlk növbədə, məhsulun düzgün defrost edilməsi vacibdir. Dondurulmuş məhsulu buzdan çıxarmaq üçün onu mənfi 18 dərəcə Selsidə saxlanılan dondurucu hissədən soyuducunun 0-5 dərəcə Selsi temperaturunda olan bölməsinə keçirmək və məhsulun təbii şəkildə əriməsini gözləmək lazımdır. Bu qayda həm ət məhsullarına, həm də meyvə-tərəvəzlərə aiddir.

Sadə şəkildə dondurulmuş meyvə və tərəvəzlər faydalı seçim ola bilər. Lakin dondurulmuş hazır yeməklər, yarımfabrikatlar, souslar və tərəvəz qarışıqları yüksək miqdarda natrium, duz, doymuş yağ və bəzi konservantlar ehtiva edə bilər. Buna görə də məhsul seçərkən onun tərkibinə və qida dəyərlərinə diqqət yetirmək lazımdır.

Dondurulmuş qidanın birbaşa otaq temperaturunda əridilməsi isə tövsiyə edilmir. Bu, bakteriyaların sürətlə çoxalmasına şərait yarada bilər. Ən təhlükəsiz üsullardan biri məhsulu istifadədən bir gün əvvəl dondurucudan soyuducuya keçirmək və orada tədricən əriməsini təmin etməkdir”.

*Lətifə Musayeva*

## BAŞSAĞLIĞI

”Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev başda olmaqla kollektiv iş yoldaşımız Mətləb Salahova yaxın qohumu

**Ceyran Fərhad qızı Əliyevanın**

vəfatı ilə bağlı başsağlığı verir, mərhuma Allahdan rəhmət, yaxınlarına səbir diləyir.

***Allah rəhmət eləsin***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İdman həyat keyfiyyətinin yüksəlməsinə xidmət edir



**“İdmanın insan orqanizminə olan təsirlərinin ancaq müsbət yöndə olduğu aşkarlanmışdır. İdman ümumiyyətlə fiziki atletizm və ya fiziki çevikliyə əsaslanan fəaliyyət sistemi olaraq qəbul edilir. İdmanla məşğul olmağın insan orqanizminə bir çox faydaları vardır. Məsələn, idman insanın əhval-ruhiyyəsini yüksəldir. Belə ki, idmanla məşğul olduqdan sonra insan özünü əvvəlkindən daha yaxşı hiss edir. İdman narahatlığı və gərginliyi aradan qaldırır. Vaxtaşırı idmanla məşğul olmaq ürəyi gücləndirir, yüksək qan təzyiqini və qanda xolesterinin miqdarını nizamlayır ki, bu da bir çox xroniki xəstəliyin qarşısını alır”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, dos. Gülbaba Quliyev bildirib.**

G.Quliyevin fikrincə, müntəzəm idmanla məşğul olan zaman insan kalori itirir, bu da artıq çəkilərdən xilas olmağa kömək edir, ürəyin və ağciyərin funksiyasını gücləndirir, vücudu oksigenlə tam təmin edir və damarlardakı qan dövranını artırır: ”Beyin damarlarının açılmasına, beyində serotonin və melotonin hormonlarının aktivləşməsinə kömək edir.İdman, insan orqanizminin, fiziki sağlamlığın və zehnin inkişafının təkmilləşdirilməsi, bütün səviyyələrdə sosial münasibətlərin formalaşdırılması və ya rəqabət əsasında nəticələrin əldə edilməsi məqsədi ilə təsadüfi və ya planlaşdırılmış iştirak vasitəsilə, fiziki fəaliyyətin bütün formaları anlamına gəlir. Fiziki gücdən daha çox zehni işlədən şahmat kimi digər fəaliyyətlər də idman hesab edilir. Bütün zövqlərə və insanın təbiətinə uyğun idman növləri vardır və bu həyatımızın hər hansı bir anında bizim şəxsiyyətimizlə və mədəniyyətimizlə olduqca yaxından bağlılığı ola bilər. Əgər biz idmanın və oyunların (bura kiçik uşaqların oyunu da daxildir) əsas məqsəd və dəyərlərindən daha dərininə nəzər yetirsək, aydın olur ki, bütün idman növləri istər futbol, istərsə də nizə atma və ya yoqa ilə məşğul olma zəruri həyat bacarıqlarının öyrədilməsi vasitəsi kimi inkişaf etmişdir. Buna görə də idman, həm rəsmi, həm də qeyri-rəsmi olaraq təhsil proqramının mühüm bir hissəsi kimi qəbul edilir”, - deyə G.Quliyev bildirib.

*Afət Tahirqızı*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**